# Respublika fənn olimpiadalarının nəticələri barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

2016-2017-ci tədris ili üzrə keçirilmiş məktəblilərin fənn olimpiadalarının başa çatdığını nəzərə alaraq nəticələrin elan edilməsi və qaliblərin mükafatlandırılması məqsədi ilə “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 8.14-cü bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2016-2017-ci tədris ili üzrə Respublika fənn olimpiadalarının nəticələri elan edilsin (əlavə olunur).

**2.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin çoxaldılıb yerlərə çatdırılmasını, “Azərbaycan müəllimi” qəzetində və Nazirliyin rəsmi internet səhifəsində dərc edilməsini təmin etsin.

**3.** Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*24 may 2017-ci il*